# Baba yanğısı...

## (sənədli hekayə)

Bir neçə il öncənin söhbətidir. Kiçik həyətimdəki üzüm talvarından üzüm yığmaq üçün küçə qapısının ağzında pillə-kənlə yuxarıya qalxmışdım. Salxımlar iri və kövrək olduqları üçün onları iki əllə tutub dərmək lazım gəlirdi. Elə ona görə də yanımda dayanmış şıx geyimli hündürboy qonşumdan əlləri ilə mənə arxadan dayaq durmasını xahiş etdim. Elə ilk salxımı tənəkdən üzmüşdüm ki, əllərim açıq olduğu üçün arxaya tərəf yıxılmaqdan özümü güclə saxladım. Və bir əlimlə birtəhər pilləkəndən tutub arxama baxdım. Qonşum qara ayaqqabılarının bir balaca palçığa bulaşmasından ehtiyat edərək məni taleyin ümidinə qoyub kənara qaçmışdı...

Aradan təxminən iki mövsüm ötmüşdü. Mən yenə həmin yerdə pilləkənlə yuxarı çıxaraq tənəkdəki bic zoğları və artıq yarpaqları qopardırdım. İki yaş yarımlıq nəvəm Əsmənur aşağıya düşən yarpaqları yığırdı. Başım qarışıq olduğu üçün nəvəmin səsini başa düşmürdüm. O, isə əlini aşağı pilləyə qoyaraq elə məni çağırırdı:

- Baba, baba, tutum səni?

Bir anlığa gözlərim qaraldı, fikir köhlənim məni qanadlarına alaraq haralara aparmadı?.. Və bir neçə saniyədən sonra özümə gələrək aşağıya baxdım... İki yaş yarımlıq körpə fidanımın gözlərində bir baba nigarançılığı, dilində isə bir baba yanğısı vardı...

- Baba, tutum səni?..

*İsmayıl* Məcidli
*fəlsəfə doktoru*

Kredo 2020.- 29 iyul.- S.14.